Dekabr, 2025

# İbtidai sinif müəllimləri üçün test

Təlimat

İmtahan testinin elektron bukleti qarşınızdadır.

Test iki hissədən ibarətdir - fənn bilikləri və akademik bacarıqlar.

Testin maksimal balı 65-dir.

Testdə təqdim olunan tapşırıqlar format baxımından müxtəlifdir. Hər bir tapşırığın təlimatını diqqətlə oxuyun, sizdən nə tələb olunduğunu yaxşı dərk edin və sonra cavabı seçərək yazın.

**Nəzərə alın:**

- Hər düzgün cavabla birlikdə səhv cavabı da qeyd etsəniz, siz bal ala bilməyəcəksiniz.
- Azərbaycan dili və ədəbiyyatı fənnindən tapşırıqları cavablandırarkən müasir Azərbaycan ədəbi dilinin normalarını pozsanız, balınızdan kəsiləcək.

**Test üzərində işləmək üçün sizə 4 saat vaxt veriləcək.**

**Sizə uğurlar arzu edirik!**

# Fənn biliyi

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

# Azərbaycan dili və ədəbiyyatı

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **1. Hansı sözün yazılışı düzgündür?**

ა) işkəncə

ბ) sujet

გ) kimano

დ) məhrum

(1) **2. Hansı cümlədə isim təsirlik haldadır?**

ა) Nizami  məktəbi dünyada məşhurdur.

ბ) Məktəbi dərindən təmizlədilər.

გ) Kəndin məktəbi yeni sistemə keçdi.

დ) Məktəbi mənim çox xoşuma gəldi.

(1) **3. Hansı cümlədə vergül buraxılmışdır?**

ა) Xülasə, mən bu işlə razı deyiləm.

ბ) Sən deyəsən, çox ağıllı qızsan.

გ) Görünür, bu tapşırıqlar tam hazırdır.

დ) Sən öz bildiyini deyirsən, əlbəttə.

(6) **4. Aşağıdakı cümlələrdə morfoloji və sintaktik səhvlərə yol verilmişdir. Səhvləri tapın, düzgün formada qeyd edin. Müəllim nəyi bilməlidir ki, bənzər səhvə yol verməsin?**

*Qeyd edək ki, düzgün yazılmış sözü səhv formada dəyişsəniz, xal itirəcəksiniz.*

Bu gün iclasda bir sıra məsələ müzakirəyə çıxarıldı. Yüzlərlə fikir səsləndi. Bəziləri bu fikirlərlə nə razılaşmır, nə də yeni fikir söyləmirdi. Beləliklə, həyəti məktəbin təmirsiz qaldı. Uşaqlar yenə də daşlı-çınqıllı yolla gəlir.

(2) **5. Cümlədə hansı səhvə yol verilmişdir? İzah edin. Müəllim nəyi bilməlidir ki, bənzər səhvə yol verməsin?**

*Biz şəmbə günü pambıq yığmağa gedirik.*

**6. İlyas Əfəndiyevin ”Geriyə baxma qoca” əsərindən verilmiş parçanı oxuyun. 6.1.-6.4. tapşırıqlarını yerinə yetirin.**

Geriyə baxma qoca

Sentyabrın on beşində babam məni üstü qırmızı dəmirli, böyük kürsülü binada yerləşən məktəbə apardı.

Və orada mənim anlaşılmaz, daimi kədərimə yeni bir hiss də əlavə olundu: mən uşaqların şən çığır-bağırı içində birdən-birə özümü yalqız hiss elədim və bu hiss sonralar da eynən mənimlə oldu. Uşaqlar arakəsmədən, sinif otağında o yan-bu yana yürüşür, bir-biriləriлə gah öcəşir, gah zarafatlaşır, gah masanın üstünə çıxıb yerə tullanırdılar. Mən isə, bir tərəfdə divara söykənərək, dinməz-söyləməz, onlara tamaşa edirdim. Mənə elə gəlirdi ki, onlar bir-birini çoxdan tanıyırlar, bir-biriləriлə qohumdurlar. Onu da bilirdim ki, bu, belə deyil. Onlar mənə əhəmiyyət vermirdilər, heç mənə tərəf baxmırdılar da...

Həmin bu günlərdə anamın malyariyası yenə də başlamışdı. Yenə də şiddətli titrədib-qızdırırdı. Yenə də mən həyətimizdəki böyük tut ağacının altına qaçıb xəlvətcə dərd çəkirdim. Bəlkə, mənim məktəbdəki uşaqların şənliyində iştirak eləməməyimin bir səbəbi də bu idi... Ancaq, axı bizim qonşumuz Yaqubun da anası xəstə idi. Bəs nə üçün o, sinifdə hamıdan çox səs-küy salırdı, hamıdan çox nadinclik edirdi?

Bizim ilk müəllimimiz Mirzə Camal saqqallı bir şəxs idi. Bizə papaqlarımızı çıxarmağı əmr etdiyi halda özü sinifdə dəri papaqla dərs deyirdi. Bilmirəm dərsə başladığımızın neçənci günü idi, anamı evdə yenə bərk xəstə qoyub gəlmişdim. Yenə də uşaqların şən səs-küyünə dərin qüssə içində qulaq asırdım. Yenə də bu şənlik mənə təəccüblü görünürdü. Zəng vuruldu. Biz keçib masalarda əyləşdik. Mirzə Camal ağır addımlarla içəri daxil olub dedi:

-Durun!

Biz qalxdıq.

Dedi:

-Oturun!

Biz əyləşdik.
Dedi:
-Nəğmə öyrənəcəyik.
Uşaqlar sevinclə tərpənişdilər və Mirzə Camal müəllim başladı öz yavaş, nazik səsilə nəğməni öyrətməyə. Uşaqlar hamısı oxuyurdu, məndən başqa. Anamı evdə xəstə qoyub gəldiyim üçün nəğmə oxumaq heç mənim ağlıma da gəlmirdi. Mən məyus-məyus qulaq asırdım. Birdən mənimlə bir masada oturan oğlan əlini qaldırıb dedi:
-Müəllim, bu oxumur!
Müəllim mənə yaxınlaşıb soruşdu:
-Niyə oxumursan?
Mən dinmədim. Mirzə Camal müəllim hirsləndi, mənim qolumdan dartıb masadan çıxararaq:
-Rədd ol! – deyib, itələyib saldı bayıra.
Mən arakəsmədən keçib çıxdım məktəbin həyətinə. Ətrafda heç kəs yox idi. Hamı siniflərdə idi. Mən divara qısılıb dayandım. Mənə elə gəldi ki, Mirzə Camal müəllim məni itələməklə bütün insanlardan, insanlar yaşayan bütün aləmdən ayrı saldı. Mən bir də heç zaman daxilimdəki aləm barədə onlara bir kəlmə də söz demədim. Evimizə gələndə olduqca gombul, ağıldan bir az kəm, Rəşid adlı oğlan atamı küçədə görüb demişdi ki:
-Müəllim oğlunu nəğmə oxumadığı üçün sinifdən qovub çıxardı.

**6.1. – 6.2. tapşırıqların şərtləri ilə tanış olun və hər bir sualın təxmini cavablarından mətnə əsasən düzgün olan variantı seçin.**

(1) **6.1. "Bəs nə üçün o, sinifdə hamıdan çox səs-küy salırdı, hamıdan çox nadinclik edirdi ?"**

-cümləsi ilə aydın olan əsas fikir hansıdır?

ა) Uşaq yeni mühitə alışmaqda çətinlik çəkirdi.

ბ) Uşaq sinif yoldaşlarını qiymətləndirməyə çalışırdı.

გ) Uşaq müəllimin fərqli münasibətini anlamağa çalışırdı.

დ) Uşaq öz kədərinin səbəbini anlamağa çalışırdı.

(1) **6.2. Balaca oğlan niyə nəğmə oxumaq istəmirdi?**

ა) Atasının qəzəblənəcəyindən qorxurdu.

ბ) Mahnının sözlərini bilmədiyinə görə utanırdı.

გ) Anasının xəstəliyinə görə dərd çəkirdi.

დ) Müəllimin ona qarşı münasibətinə etiraz edirdi.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

**6.3. - 6.4. tapşırıqlarının şərtlərini diqqətlə oxuyun. Fikrinizi aydın, yığcam və əsaslandırılmış şəkildə təqdim edin. Əsaslandırılmış mülahizə məntiq baxımından formalaşmış və ədəbi dil normaları əsasında tərtib olunmalıdır.**

(2) **6.3. "Müəllim bizə papaqlarımızı çıxarmağı əmr etdiyi halda özü sinifdə dəri papaqla dərs deyirdi"** cümləsi ilə aydın olur ki;

(2) **6.4. "Müəllim məni itələməklə insanlar yaşayan aləmdən ayrı saldı və mən bir də heç zaman daxilən bu insanların içinə qayıtmadım"** cümləsində nə nəzərdə tutulmuşdur?

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39

**7. Məmməd Arazın “Müharibə olmasa” şeirini oxuyun və 7.1.-7.2. tapşırıqlarını yerinə yetirin:**

Yer min illik barını
Bircə gündə yetirər,
Alim ayı, ulduzu
Dartıb yerə gətirər,
Müharibə olmasa!

Bəşərin qapısından
Vaxtsız ölüm gen düşər,
İnsanın saçlarına
Yüz yaşında dən düşər,
Müharibə olmasa!

Sevənlər aləmində
Nə qəm, nə həsrət olar,
Bəşərin gülləsi -söz,
Sözü məhəbbət olar,
Müharibə olmasa!

(2) 7.1. Şeirdə **“Yer min illik barını bircə gündə yetirər”, “Alim ayı, ulduzu dartıb yerə gətirər”, “İnsanın saçlarına yüz yaşında dən düşər”** cümlələri məcazi mənada verilmişdir. Burada hansı ifadə vasitəsinin işləndiyini müəyyən edin və şeirdə hansı bədii funksiya daşıdığı haqqında mülahizə yürüdün.

**(2) 7.2. Müəllifin əsas fikrinin nə olduğu haqqında mülahizə yürüdün; Şeirdəki əsas problemi ümumiləşdirin.**

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

# Riyaziyyat

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **8.** Hər bir ananas eyni qiymətə satılır, həmçinin, hər bir avokado da eyni qiymətə satılır. 3 ananas 5 avokadodan bahadır. Hansının dəyəri daha baha olacaq – 6 ananas, yoxsa 9 avokado?

ა) 6 ananas;

ბ) 9 avokado;

გ) Bərabər dəyərdə olacaq;

დ) Bunu müəyyənləşdirmək üçün məlumatlar kifayət deyil.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **9.** Motosikletçi 2 saat ərzində 35 km/saat sürətlə, növbəti 3 saat ərzində isə 40 km/saat sürətlə hərəkət edirdi. Geri qayıdarkən sabit sürətlə hərəkət edən motosikletçi həmin məsafəni qət etmək üçün 5 saat lazım gəldi. Geri qayıdarkən motosikletçinin sürəti neçəyə bərabər idi?

ა) 32 km/saat;
ბ) 34 km/saat;
გ) 36 km/saat;
დ) 38 km/saat.

(1) **10.** Bərabərtərəfli üçbucağın tərəfinin uzunluğu düzbucaqlının enindən 6 dəfə, perimetri isə düzbucaqlının perimetrindən 3 dəfə çoxdur. Düzbucaqlının uzunluğu düzbucaqlının enindən neçə dəfə çox olacaq?

ა) 2 dəfə;

ბ) 3 dəfə;

გ) 4 dəfə;

დ) 5 dəfə.

(1) **11.** Dato bir neçə karandaş və bir neçə qələm aldı. Onun cəmi 3 lari və 10 tetrisi var idi. Dato hər bir karandaşa 40 tetri, hər bir qələmə isə 80 tetri ödədi. Sadalananlardan hansı məbləğ Datoya qalan məbləğə bərabər ola bilər?

ა) 60 tetri;

ბ) 70 tetri;

გ) 80 tetri;

დ) 90 tetri.

## Göstəricilərin analizi

Diaqramda 2007-2010-cu illərdə ölkədə adambaşına neçə kiloqram armud və şaftalı yetişdirildiyi əks olunub.




*Növbəti iki suala bu diaqram əsasında cavab verin.*

Suallara keçid: 12 13

(1) **12.** Adambaşına yetişdirilmiş armud və şaftalının ümumi çəkisi ən çox neçənci ildə olmuşdur?

ა) 2007

ბ) 2008

გ) 2009

დ) 2010

Diaqrama baxmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **13.** 2010-cu ildə ölkə əhalisinin sayı 2008-ci illə müqayisədə dəyişməyib. Ölkədə 2008-ci ildə yetişdirilmiş armudun kütləsi 2010-cu ildə yetişdirilmiş armudun kütləsindən neçə dəfə çox idi?

ა) $\frac{3}{2}$ dəfə;

ბ) $\frac{4}{3}$ dəfə;

გ) $\frac{7}{5}$ dəfə;

დ) $\frac{9}{5}$ dəfə.

Diaqrama baxmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **14.** 46 ədəd qırmızı və 69 ədəd sarı qızılgüldən dəstələr bağladılar. Hər bir dəstədə qırmızı qızılgüllərin sayı bərabər idi, həmçinin hər bir dəstədə sarı qızılgüllərin sayı da bərabər idi. Cəmi neçə dəstə bağladılar?

ა) 21

ბ) 22

გ) 23

დ) 24

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **15**. Zərgər orta çəkisi 6 qram olan 5 üzük hazırladı. Bu üzüklərdən dördünün hər birinin çəkisi 6 qramdan artıq, 7 qramdan azdır. 5-ci üzüyün çəkisi sadalananlardan hansına bərabər ola bilər?

ა) 2 qram;

ბ) 4 qram;

გ) 6 qram;

დ) 8 qram.

(1) **16.** Aşağıda verilmiş diaqramlardan hansı dördbucaqlılar, düzbucaqlılar və romblar çoxluqları arasındakı qarşılıqlı münasibətləri təsvir etmək üçün uyğundur?



ა)



ბ)



გ)



დ)

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **17.** Eyni cür 5 ağac çubuqdan tilinin uzunluğu 3 sm olan kub formalı cisim hazırladılar. Tilinin uzunluğu 6 sm olan kub formalı cismin hazırlanması üçün neçə ədəd belə çubuq lazımdır?

ა) 10

ბ) 20

გ) 30

დ) 40

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **18.** $\frac{3}{8} < \frac{a}{12} < \frac{13}{18}$ şərtlərini ödəyən neçə $a$ tam ədəd var?

ა) 4

ბ) 5

გ) 6

დ) 7

(1) **19.** Sərnişin qatarı 3 vaqondan ibarətdir. Üçüncü vaqonda olan bütün sərnişinlər birinci vaqona keçdikləri təqdirdə birinci vaqonda sərnişinlərin sayı 3 dəfə, ikinci vaqondakı sərnişinlər birinci vaqona keçdikləri təqdirdə isə birinci vaqonda sərnişinlərin sayı 4 dəfə artar. İkinci və üçüncü vaqondakı sərnişinlərin hamısı birinci vaqona keçərsə, birinci vaqonda sərnişinlərin sayı neçə dəfə artar?

ა) 5 dəfə;

ბ) 6 dəfə;

გ) 7 dəfə;

დ) 12 dəfə.

(3) **20.** Çəkməcədə 24 ədəd qələm və 16 karandaş var. Çəkməcəyə daha neçə ədəd karandaş qoymalıyıq ki, orada olan karandaşların faiz payı 60%-ə bərabər olsun?

Cavabınızı əsaslandırın.

(3) **21.** Şagirdlərə aşağıdakı işi təklif etdilər:

1) Hesablayın: I. $(57057 + 380) : 19$ II. $(7707 - 280) : 7$ III. $(520 \cdot 65) : 13$

2) Sərnişin qatarı bir şəhərdən saat 17:00-də çıxdı və ikinci şəhərə saat 02:40-də çatdı. Sürətli qatara isə həmin məsafəni getmək üçün 2 saat və 30 dəqiqə daha az vaxt lazım oldu. Sürətli qatara yolu qət etmək üçün nə qədər vaxt lazım olar?

3) İraklinin 20 yaşı, Ananın 1 yaşı, Sandronun 3 yaşı, Mariamın isə 4 yaşı var. Neçə ildən sonra İraklinin yaşı Ananın, Sandronun və Mariamın yaşlarının cəminə bərabər olacaq?

4) Kvadrat iki bərabər düzbucaqlıya bölünmüşdür. Onlardan hər birinin perimetri 12 sm-dir. Kvadratın perimetri neçəyə bərabərdir?



Növbəti səhifədə şagirdlərdən birinin hazırladığı iş verilmişdir:

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

1) I. $(57057 + 380) : 19 = 57057 : 19 + 380 : 19 = 303 + 20 = 323$

II. $(7707 - 280) : 7 = 7707 : 7 - 280 : 7 = 1101 - 40 = 1061$

III. $(520 \cdot 65) : 13 = (520 : 13) \cdot (65 : 13) = 40 \cdot 5 = 200$

2) 24 saat − 17 saat = 7 saat     2 saat 40 dəq − 2 saat 30 dəq = 10 dəq

Sürətli qatara 7 saat − 10 dəq = 6 saat 50 dəq. lazım olardı.

3) $1 + 3 + 4 = 8$, $20 - 8 = 12$, $12 : 3 = 4$. Cavab: 4 ildən sonra.

4) $12 + 12 = 24$, $24 \cdot \frac{6}{4} = 36$. Cavab: 36 sm.

- Şagird tərəfindən buraxılmış hər bir səhvi göstərin və düzgün şəkildə yazın.

# Təbiət

(1) **22.** İllüstrasiyada əks olunan heyvanların hansı ortaq əlaməti var?



I – Sərt qabıqlı yumurta qoyurlar

II – Ətraf mühitdə oxşar hərəkət edirlər

III – Oxşar tənəffüs sisteminə malikdirlər

ა) Yalnız I;

ბ) Yalnız II;

გ) I və II;

დ) I və III.

(1) **23.** Gürcüstanda məskunlaşan məməlilərdən hansı, nəslinin tükənməsi təhlükəsi ilə qarşı-qarşıyadır?

I – Delfin    II – Qonur ayı    III – Boz canavar

ა) Yalnız I;
ბ) Yalnız II;
გ) I və II;
დ) I və III.

(1) **24.** Bitkilərin hansı qrupu toxum əmələ gətirir?

I – Çiçəkli bitkilər II – İynəyarpaqlılar III – Qıjılar

ა) Yalnız I və II;

ბ) Yalnız I və III;

გ) Yalnız II və III;

დ) I, II və III.

(1) **25.** Bitki hansı orqanı ilə tənəffüs edir?

I – Yarpağı ilə   II – Gövdəsi ilə   III – Kökü ilə

ა) Yalnız I;

ბ) Yalnız II;

გ) Yalnız III;

დ) I, II və III.

(1) **26**. Hansı həşərat dörd mərhələli həyat dövrünü keçir?

I – Çəyirtkə    II – Kəpənək    III – Parabüzən

ა) Yalnız I və II;

ბ) Yalnız I və III;

გ) Yalnız II və III;

დ) I, II və III.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **27.** Cədvəl verilmişdir:

| Maddə | Ərimə temperaturu °C-də | Qaynama temperaturu °C-də |
|---|---|---|
| X | -40 | 30 |
| Y | -10 | 80 |

Temperaturu (-20)°C-dən 100°C-dək dəyişdilər. Cədvəldə verilən hər bir maddənin aqreqat halı neçə dəfə dəyişər?

ა) Hər ikisinin bir dəfə;

ბ) Hər ikisinin iki dəfə;

გ) X-in bir dəfə, Y-in iki dəfə;

დ) X-in iki dəfə, Y-in bir dəfə.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **28.** Şəkildə ona cismi daxil etmədən əvvəl və daxil etdikdən sonra mayeli menzurka, eyni zamanda həmin cism elektrontərəzidə təsvir olunmuşdur. Cismin sıxlığı nəyə bərabərdir? Cismi tərəziyə qoymazdan əvvəl tərəzi sıfırda idi.




ა) 5 $q/sm^3$

ბ) 7,6 $q/sm^3$

გ) 8 $q/sm^3$

დ) 14,4 $q/sm^3$

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **29.** Seysmoloq hansı fotoda göstərilib?













1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **30.** Xəritə fraqmentinə əsasən, hansı mülahizə *<u>səhvdir</u>*?




**Miqyas** 1:10 000

ა) 1 və 2 torpaq sahələri çayın sol sahilində yerləşir;
ბ) Körpüdə duran müşahidəçi üçün quyu şimalda yerləşir;
გ) Tsivi çayının sağ sahili boyunca yarğandır;
დ) Xəritədə enliyarpaqlı meşə göstərilib.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **31.** Sadalananlar arasında Sidney şəhərindən hansı şəhərə qədər daha qısa, birbaşa məsafədir?




ა) Tbilisiyə qədər;

ბ) San-Pauluya qədər;

გ) Londona qədər;

დ) San-Fransiskoya qədər.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **32.** Xəritədə qeyd edilən yerlərdən hansı pinqvinkimilərin yayıldığı təbii areal *deyil*?



ა) 1
ბ) 2
გ) 3
დ) 4




1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **33.** Verilən foto hansı təbii sərvətin hasilatını əks etdirir?



ა) civənin;

ბ) qızılın;

გ) neftin;

დ) manqanın.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

# Akademik qabiliyyət

# Oxunmuş mətnin dərk edilməsi

*Mətni diqqətlə oxuyun və düşünün. Hər sualın ehtimal olunan cavablarından verilən mətnə görə düzgün variantı seçin.*
*Bu və ya digər sualla tanış olduqdan sonra suala cavab vermək üçün mətnə qayıtmaq, müvafiq parçanı yenidən oxumaq və suala keçmək lazım gələ bilər. Bunu mətnin, eləcə də hər sualın sonunda verilmiş müvafiq qeydi "basmaqla" asanlaşdıra bilərsiniz.*

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

I Valideynlərin övladları ilə getdikcə daha az vaxt keçirdikləri müasir reallıqda mənəvi təhsilin effektiv yollarını axtarmaq xüsusilə vacibdir. Belə bir fikir var ki, uşaqların düzgün və səhv, ədalət və ədalətsizlik barədə nəzərləri böyüklərin tədrisinin birbaşa nəticəsini təqdim etmir. Uşaqlara mənəvi davranışın üstünlüklərini dərk etməyə imkan verən yollardan biri kimi nağılları nəzərdən keçirirlər.

II Nağıllar metaforlar vasitəsilə uşağın inkişafında mühüm sosial və mənəvi funksiyanı yerinə yetirə bilirlər. Nağıldakı vizual obrazlar reallığı örtülü şəkildə əks etdirir, düzgün seçim etməyə dəstək verən metaforları təqdim edirlər. Belə bir metaforlar uşaqlara mühüm mənəvi və həyati dərsləri obrazlı və emosional cəhətdən cəlbedici forma ilə, onlar üçün aydın dildə çatdırır. Nağıllardakı metaforlar uşaqlara mücərrəd anlayışları və prinsipləri qavramaqda yardım edə bilər. Başqa cür onlara aydın olmur, çünki mücərrəd təfəkkür bacarıqları hələ formalaşmayıb. Metaforlar mənəvi cəhətdən haqlı və haqsız hərəkətləri obrazlara çevirir. Müsbət metafor mənəvi davranışı cəlbedici və maraqlı edir, mənfi metafor isə oxucuya əxlaqsız davranışın nəticələrini göstərir və oxşar davranışlardan çəkinməyə təkan verir. Məsələn, "qaranlıq meşə" çaşqınlıq, qorxu, çətinliklər metaforudur, "əjdaha" - özündə məğlub ediləsi zəifliklərin metaforusı, "qızıl alma" - qəhrəmanın maneələrlə dolu böyük yol keçdiyi çətinliklə əldə edilən xoşbəxtlik metaforudur.

III Uşağa mənəviyyatı aşılatdıran nağılın sonunda ədalətin/xeyirxahlığın qələbəsi deyil, uşağın öz-özünü eyniləşdirdiyi cazibədar qəhrəmandır. Bu eyniləşdirməyə görə uşaq öz təsəvvüründə qəhrəmanla birlikdə bütün sınaqlardan keçir və xeyirin qələbəsini onunla birlikdə qeyd edir. Nağılların uşaqcasına qavranılması yaşa görə fərqlənir, nağıl heç vaxt "birbaşa" dərk edilmir. Hər bir uşaq nağılın mövzusunu öz yaşına, biliyinə, təcrübəsinə, fiziki, emosional, koqnitiv və mənəvi inkişaf səviyyəsinə, canatmasına və konkret anda konkret uşağın qarşısında duran çağırışlara uyğun olaraq dərk edir.

Suallara keçid: 34 35 36 37 38

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

IV Araşdırmalardan birində 3-dən 9 yaşına qədər uşaqlar arasında, onlara məlum olmayan metaforları anlamaq qabiliyyəti araşdırılıb. Məlum olub ki, bu qabiliyyət yaş artdıqca təkmilləşsə də, hər yaşdan olan uşaqlara metaforları başa düşmək üçün vizual obraz/illüstrasiya lazım gəlib.

V Nağılda uşaq konkret səhnədə hərəkəti görür və bu da ona hadisələr arasında səbəb-nəticə əlaqələrini dərk etməkdə və reallığa keçirməkdə yardım edir. Eləcə də nağıl emosiya yaradır və bu da uzunmüddətli vaxt ərzində məlumatı yadda saxlamaq ehtimalını artırır.

Suallara keçid: 34 35 36 37 38

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **34. Birinci abzasa görə çıxarılan əsas nəticə nədir?**

ა) Valideynlər övladları ilə getdikcə daha az vaxt keçirirlər;

ბ) Mənəvi davranışın üstünlüyünün dərk edilməsi böyüklərin tədris nəticəsidir;

გ) Mənəvi təhsilin birbaşa olmayan yollarından biri kimi nağılları nəzərdən keçirirlər;

დ) Uşaqların mənəvi təhsil səviyyəsi getdikcə daha aşağı düşür.

Mətnin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **35. Nağılda təqdim edilən metafor reallıq haqqında dəyərli dərsi uşaqlara hansı yolla verə bilir?**

ა) Nağılda metaforlar inanılmaz hadisələrə realistik məna qazandırır və uşaq üçün maraqlı olur;
ბ) Metafor vasitəsilə mücərrəd mənəvi prinsiplər əyani obrazlar və emosional cəhətdən cəlbedici hərəkətlər kimi təqdim edilir;
გ) Mənfi metafor mənəvi cəhətdən ədalətsiz davranışı uşaq üçün cəlbedici edir;
დ) Müsbət metaforlar vasitəsilə təqdim edilən hadisələr əyləncəli məna qazanır və uşaq üçün asanlıqla başa düşülən olur.

Mətnin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **36. Nə üçün nağıl uşağa valideynin və ya müəllimin birbaşa göstərişindən daha güclü təsir göstərir?**

ა) Nağılda xeyir hər zaman şər üzərində qələbə çalır və bu da uşağa aydın dildə çatdırılır;

ბ) Uşaq nağılı öz yaşına, təcrübəsinə, koqnitiv və mənəvi inkişaf səviyyəsinə uyğun olaraq qavrayır;

გ) Uşaq yaşında metaforlar daha asanlıqla başa düşülür, nəinki birbaşa söylənilən göstərişlər;

დ) Uşaq özünü nağıl qəhrəmanı ilə eyniləşdirir, onunla birlikdə nağılın qəhrəmanı olur və bu və ya digər davranışın haqlılığını bu yolla daha yaxşı dərk edir.

Mətnin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **37. Dördüncü abzasda təqdim edilən araşdırma nəticəsi sadalanan mülahizələrdən hansının arqumenti ola bilər?**

ა) Uşaqların mənəvi inkişafının yeganə mənbəyi nağıllarda təqdim edilən metaforlardır;

ბ) Tövsiyə olunur ki, uşaqların tədris prosesində mücərrəd ideyaların ötürülməsini obrazlı material müşayiət etsin;

გ) Uşaqların mücərrəd ideyaları və mənəvi dilemmaları dərk etmək qabiliyyətləri artıq erkən yaşlarından var;

დ) Uşaqlar nağılın əsas ideyasını "birbaşa" başa düşməkdə çətinlik çəkirlər, bunda onlara onların bilik və təcrübəsi kömək edir.

Mətnin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(1) **38. Sadalananlar arasında hansı yol nağılların uşaqlara mənəvi davranışı anlamaqda kömək etdikləri əsas təsir yoludur?**

ა) Emosional iştirak və vizual metaforlar;

ბ) Nağıl dilinin sadəliyi - aydın ötürülən ideyalar;

გ) Nağılın ənənəvi strukturu - xoşbəxt son;

დ) Nağıl qəhrəmanı ilə yaşca yaxınlıq və konkret səhnə.

Mətnin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39

(9) **39. Analitik yazı**

Tapşırıqda verilmiş iki bir-birinə zidd məsələ ilə tanış olun. Onlardan birinin xeyrinə seçim edin, seçiminizi əsaslandırmaq üçün arqumentlər gətirin və məsələnin həllinin ikinci mümkün yolunu tənqidi şəkildə qiymətləndirin.

a) Müəllim mütəmadi olaraq ev tapşırıqlarını verməlidir ki, şagirdlər fənn üzrə bilik əldə etsinlər və praktik bacarıqlarını inkişaf etdirsinlər.

b) Fənn biliklərinin əldə edilməsi və praktik bacarıqları inkişaf etdirmək üçün məktəb və dərs prosesi birmənalı şəkildə effektiv vasitəni təqdim edir. Bu da şagirdin ev tapşırıqları ilə mütəmadi yüklənməsi məsələsini gündəmdən çıxarır.

İnşa ən azı 120 sözü əhatə etməlidir.